# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 24 (1369), 12 - 21 iyun 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Prezident İlham Əliyev Beynəlxalq Velosipedçilər İttifaqının prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyeni qəbul edib.

David Lappartyen velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatında iştirak etmək üçün Azərbaycana gəlməsindən məmnunluğunu ifadə etdi. O, bu tədbirin mühüm beynəlxalq idman yarışı olduğunu vurğulayaraq 43 ölkədən 1500-dən artıq idmançının iştirak etdiyini bildirdi. Azərbaycanda beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini deyən David Lappartyen Bakıda birinci Avropa Oyunlarının açılışının gözəl təşkil olunduğunu və orada iştirakını məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Bakıda keçirilən velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının önəminə toxunaraq Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyenə Azərbaycanda velosiped idman növünün inkişafına verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi ölkəmizdə bu idman növünə marağın artmasına və ümumilikdə idmanın inkişafına təkan verir.

Söhbət zamanı Azərbaycanda idmanın sürətli inkişafı, ölkəmizdə müxtəlif idman növləri üzrə ən müasir infrastrukturun yaradıldığı məmnunluqla qeyd olundu, Azərbaycanda keçirilən mühüm idman tədbirlərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

## Bakıda keçirilən BMX üzrə dünya çempionatı başa çatıb

Mayın 5-9-da Bakıda keçirilən velosiped idmanının BMX növü üzrə dünya çempionatına yekun vurulub. Yarışda 43 ölkədən 1500-dək velosipedçi birincilik uğrunda mübarizə aparıb.

Dünya çempionatında Azərbaycan 8 idmançı ilə təmsil olunub. Məlumat üçün bildirək ki, Azərbaycan indiyədək Olimpiya idman növləri olan güləş, boks və bədii gimnastika üzrə dünya çempionatlarına uğurla ev sahibliyi edib. Velosiped idmanının Olimpiya növü olan BMX üzrə bu yarış Azərbaycanda keçirilən sayca dördüncü dünya çempionatıdır. Çempionatın keçirildiyi BMX stadionu 2014-cü ildə tikilib və burada ilk Avropa Oyunlarının BMX üzrə velosiped yarışları təşkil olunub. Lakin 2016-cı ildə Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) BMX stadionlarının standartlarını dəyişib. Trekin uzunluğu, eni, döngələrin hündürlüyü artırılıb, maneələrin konfiqurasiyası dəyişdirilib.

Dünya çempionatının ilk yarış günündə "Challenge" yarışlarında yeniyetmə oğlanlar və qızlar arasında iki yaş kateqoriyası üzrə qaliblərin adlarına aydınlıq gəlib. 16 və daha aşağı yaşlı qızların yarışında ABŞ idmançısı Makkenziya Qeyhart birinci olub. 12 və daha aşağı yaşlı kişi idmançıların yarışında argentinalı Federiko Ariel Kapello fərqlənib.

*(ardı 2-ci səhifədə)*



## Avropa çempionatında iki qızıl medal



Lixtenşteyndə keçirilən atletika üzrə kiçik ölkələrin Avropa çempionatında idmançılarımız uğurla çıxış ediblər. Atletimiz Zəkiyyə Həsənova 100 metr məsafəyə qaçış yarışlarında 11.61 saniyə nəticə göstərərək Azərbaycan rekorduna imza atıb və çempionatın gümüş medalını qazanıb.

Zəkiyyə Həsənova 200 metr məsafəyə qaçışda daha yaxşı nəticə göstərib. Belə ki, o, 23.56 saniyə nəticə ilə yarışların qızıl mükafatına sahib olub.

Kişilər arasında 110 metr məsafəyə sədlərlə qaçış yarışında atletimiz Rahib Məmmədov 14.06 saniyə nəticə ilə Avropa çempionu adını qazanıb.

## Bakıda keçiriləcək həmrəylik tennis çempionatının loqosu təqdim olunub




Bakıda keçiriləcək ikinci beynəlxalq həmrəylik tennis çempionatının yerli Təşkilat Komitəsi bu mühüm turnirin loqosunu təqdim edib.

Loqo Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının irsini davam etdirən tennis çempionatında istifadə olunacaq.

İyulun 23-28-də keçiriləcək ikinci beynəlxalq həmrəylik tennis çempionatı İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) və Azərbaycan Milli Olimpiya Komitəsinin imzaladığı birgə tərəfdaşlığa dair Anlaşma Memorandumuna əsasən təşkil olunacaq. Anlaşma Memorandumunu cari il aprelin 19-da İHİF-in baş katibi Məhəmməd Əl-Qarnas və MOK-un vitse-prezident Çingiz Hüseynzadə imzalayıblar.

Memorandumun məqsədi İHİF-ə üzv ölkələrin idmançıları arasında İslam həmrəyliyini möhkəmləndirmək, ən yüksək idman dəyərləri və prinsiplərini qoruyub saxlamaq, müsəlman ölkələrində idman və Olimpiya Hərəkatını, gənclər arasında birlik və qardaşlığı təbliğ etməkdir.

## Olimpizm



### BOK prezidenti "İdman vasitəsilə sülhün təbliği" mükafatına layiq görülüb

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax "İdman vasitəsilə sülhün təbliği" mükafatına layiq görülüb. Bununla bağlı BOK-un rəsmi saytı məlumat yayıb.

Siyasət, iqtisadiyyat, mədəniyyət və idman aləmindən ən nüfuzlu şəxslər bu mükafata layiq görülürlər. BMT-nin sabiq baş katibi Pan Gi Mun Tomas Baxı bütün planetdə idman vasitəsilə sülh naminə tanınmış təbliğatçı adlandırıb. O deyib: "Bu ilin aprelində KXDR və Cənubi Koreya liderlərinin Koreya yarımadasında dinc gələcək naminə dialoqa başlamaq üçün masa arxasına oturmaları heç də təsadüfi deyildi. Bu danışıqlar həm də onunla əlamətdardır ki, məhz idmanın gücü Koreya yarımadasında dinc gələcək üçün unikal imkanlar pəncərəsi açıb. Məhz Tomas Bax iki Koreyanın 2018-ci ilin Qış Olimpiya Oyunlarında birgə iştirakına şərait yaradıb".

Xatırladaq ki, Cənubi Koreyanın Pxençan şəhərində keçirilən olimpiada zamanı KXDR və Cənubi Koreya yığmalarından ibarət vahid komanda hokkey üzrə qadınların turnirində iştirak etmişdi.

### Avstraliya Olimpiya Komitəsi medal planını ləğv edir

Avstraliya Olimpiya Komitəsinin (AOK) prezidenti Con Koates federasiyanı medal planından imtina etməyə çağıran üzgüçülük üzrə beşqat Olimpiya çempionu Yan Torpun çıxışını şərh edib.

Koates medal planlarının idmançılar üçün zərərli olduğu barədə Torpun fikirləri ilə razılaşıb.

Koates deyib: "AOK və Yanın mövqeləri tamamilə üst-üstə düşür. 2016-cı ilin noyabrında AOK rəhbərliyi qərara gəlib ki, 2018-ci il Pxençxan Qış və 2020-ci il Tokio Yay Olimpiya oyunlarında medal planları ləğv edilsin. Yanın söylədiyi mülahizələrdən çıxış edərək, biz medal qazanılması üzrə plan qoyulmasından imtina edirik".




## Güc strukturları arasında üzgüçülük yarışı keçiriləcək

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsidən redaksiyamıza verilən məlumata görə iyunun 29-da Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi ilə bağlı güc strukturları arasında üzgüçülük üzrə estafet yarışları keçiriləcək. Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Su İdman Sarayının təşkilatçılığı ilə keçiriləcək yarışda 6 komanda iştirak edəcək. Estafet yarışlarında Müdafiə Nazirliyi, Sərhəd Qoşunları, Dövlət Təhlükəsizlik Xidməti, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi və həmçinin Su İdman Sarayının komandaları iştirak edəcəklər.

Qaliblərə müvafiq olaraq pul mükafatları və diplomlar təqdim olunacaq.


olimpnews.az - sizin saytınız





# Bakıda keçirilən BMX üzrə dünya çempionatı başa çatıb

(əvvəli 2-ci səhifədə)

13-14 yaşlı velosipedçilərin mübarizəsində Pedro Xose Benalkazar Querrero (Ekvador), 15-16 yaşlılar arasında Joris Bequin (Fransa) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Həmçinin 17-24 yaş kateqoriyasında çempion adını Felippe Qonsalves (Braziliya) qazanıb. Oğlanlar arasında 25-29 və 17-29 yaş kateqoriyasında birinci yerləri hollandiyalı velosipedçilər Robin Van Der Kolk və Suele Ruitenqa tutublar.

BMX üzrə dünya çempionatında veteran idmançılar da mübarizə aparıblar. Kişi velosipedçilər 30-34, 35-39, 40-44, 45-49, 50 və daha yuxarı yaş kateqoriyalarında, qadınlar isə 30-39 və 40 yaşından yuxarı yaş kateqoriyalarında qüvvələrini sınayıblar.

İyunun 5-də Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatının açılış mərasimi olub. Mərasimdə yarışın Təşkilat Komitəsinin sədri, baş nazirin birinci müavini Yaqub Eyyubov, Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin (UEC) Rəhbər Komitəsinin üzvü, dünya çempionatının keçirilməsi ilə bağlı yaradılmış işçi qrupunun rəhbəri Sahib Ələkbərov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və digər şəxslər iştirak ediblər.

Açılış mərasimində dünya çempionatının iştirakçılarını salamlayan baş nazirin birinci müavini, Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov Azərbaycanın nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etdiyini vurğulayaraq deyib: "Gündən-günə inkişaf edən qonaqpərvər Azərbaycan artıq dünyanın ən güclü idman ölkələrindən biri kimi tanınmaqdadır. Bunun nəticəsidir ki, beynəlxalq idman qurumları böyük yarışların təşkilatçılıq hüququnu tərəddüd etmədən ölkəmizə etibar edirlər. 2015-ci ildə ilk Avropa Oyunları, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın təşkilatçılıq potensialının kifayət qədər yüksək olduğunu bir daha bütün dünyaya göstərdi. Beynəlxalq Velosipedçilər İttifaqının builki dünya çempionatının Bakıda keçirilməsi barədə qərarını ölkəmizdə idman və bədən tərbiyəsi sahəsində əldə olunan nailiyyətlərə verilən yüksək qiymət kimi dəyərləndiririk".

Yaqub Eyyubov yarışı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

İyunun 6-da kiçik yaşlı yeniyetmə (Challenge) və həvəskarlar arasında daha bir neçə kateqoriyada qaliblər müəyyənləşib. 8 yaşlı idmançıların yarışında Mana Savada (Yaponiya) fərqlənib. 9 yaşlıların mübarizəsində Qvadalupe Palasios Palomeque (Kolumbiya), 10 yaşlılarda Taylor Sprat (ABŞ) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Portia Eden (Avstriya) 11 yaşlı idmançılar arasında, Paula Kibare isə (Latviya) 12 yaşlılarda bütün rəqiblərindən üstün olub.




Çempionatın üçüncü günündə 13 yaşlılar, həvəskarlar, "Elit" və "Masters" kateqoriyasında yarışlara yekun vurulub.

13 və 14 yaşlı oğlanların mübarizəsində çempion adını Avstraliya velosipedçiləri qazanıblar. Tomas Tuker və Cordan Kallum Bakını qızıl medalla tərk ediblər. Argentinalı Qianni Antonio Daddona 15 yaşlılar, fransalı Tatyan Lui Hin Tsan isə 16 yaşlılar arasında fəxri kürüsnün ən yüksək pilləsinə qalxıb.

13 yaşlı qızların mübarizəsində Leila Valker (Yeni Zelandiya), 14 yaşlı qızlar arasında Kira Hill (Avstriya) birinci pilləyə yüksəlib. Britaniyalı Lauren Anyon 15 yaşlıların mübarizəsində dünya çempionu adına sahib olub. 16 yaşlı qızların mübarizəsində qızıl medala İsveçrə idmançısı Nadine Aeberhard layiq görülüb.

Oğlanlar arasında 17-24 və 25-29 yaş kateqoriyasında Hollandiya təmsilçiləri Kevin Spanninq və Robin Van Der Kolk çempion adını qazanıb. Çempionatda kişilərin mübarizəsində 30-34 yaş kateqoriyasında Skott Vaterhaus (Böyük Britaniya), 35 və daha yuxarı yaş qrupunda Tim Ferqusan (Yeni Zelandiya) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışda 17-24 yaş kateqoriyasında qızların mübarizəsində Şarlotte Qrin (Böyük Britaniya), qadınların 25 və yuxarı yaş qrupunda isə Lieke Klaus (Hollandiya) birinci yeri tutub. "Masters" kateqoriyasında 30 və yuxarı yaş qrupunda ABŞ idmançısı Teylor Braun dünya çempionu olub.

İyunun 9-da velosiped idmanının BMX növü üzrə dünya çempionatında elit kateqoriyasında qaliblər bəlli olub. Qadınların yarışında Hollandiya idmançıları ilk üç pillədə yer alıblar. Birinci yeri Laura Smulders tutub. Kişilərin mübarizəsində isə fransalı velosipedçilər fəallıq nümayiş etdiriblər. Birinciliyi Silvain Andre qazanıb.

Son yarış günündə gənclər və Elit kateqoriyasında qaliblər müəyyənləşib.

Gənc qızların mübarizəsində hollandiyalı İndi Şipers, gənc oğlanların yarışında isə birinci yeri fransalı Leo Qaroyan tutub. Elit kateqoriyada yarışan qadınlar arasında Hollandiya idmançıları ilk üç pillədə yer alıblar. Fəxri kürsünün ən yüksək pilləsində Laura Smulders yer alıb.

Kişilərin mübarizəsində isə fransalı velosipedçilər fəxri kürsünün ilk 2 pilləsinə qalxıblar. Silven Andre birinci olub.

İlk üç pillədə qərarlaşan idmançılara medal və çempionatın rəsmi talismanı olan Qafqaz bəbiri, qalib idmançılara isə çempionluq köynəyi verilib.

Növbəti dünya çempionatı Belçikada keçiriləcək. Yarışın keçici bayrağı iyunun 8-də Bakıda Belçika nümayəndə heyətinə təqdim olunub.

# Yığmamız Latviya komandasına qalib gəlib

Azərbaycanın futbol üzrə millisi iyunun 9-da növbəti yoldaşlıq oyununa çıxıb. Riqadakı "Dauqava" stadionunda keçirilən oyunda komandamız Latviya yığması ilə qarşılaşıb.

Qarşılıqlı hücumlar şəraitində keçən görüş Azərbaycan futbolçularının 3:1 hesablı qələbəsi ilə başa çatıb. Oyunun 20-ci dəqiqəsində komandamızın üzvü Maksim Medvedev hesabı açıb. Birinci hissə millimizin 1:0 hesablı qələbəsi ilə başa çatıb.

Qarşılaşmanın 57-ci dəqiqəsində Cavid İmamverdiyev hesab arasındakı fərqi iki topa çatdırıb. Oyunun 67-ci dəqiqəsində isə Emin Mahmudov üçüncü topu rəqib komandasının qapısından keçirib. Meydan sahibləri oyunun son dəqiqələrində vurulan qollardan birinin əvəzini çıxıblar. Əsas vaxta əlavə olunmuş ikinci dəqiqədə Robert Uldrikis müdafiəçilərimizin səhvindən istifadə edərək hesab arasındakı fərqi azaldıb - 3:1.



Beləliklə, Qurban Qurbanovun yetirmələri UEFA Millətlər Liqasından əvvəl sonuncu yoldaşlıq görüşünü qələbə ilə başa vurublar.

Xatırladaq ki, Azərbaycan və Latviya komandaları sonuncu dəfə 2004-cü ildə Riqada qarşılaşıblar. Həmin görüş 2:2 hesabı ilə yekunlaşıb. Millimizin Latviya yığması ilə bundan əvvəl 1997-ci ildə və 2002-ci ildə səfərdə keçirdiyi oyunlarda da qalib müəyyənləşməyib - 0:0.

Bugünkü matç yığmamızın Qurban Qurbanovun rəhbərliyi ilə altıncı oyunu olub. Milli komandamız Qırğızıstan yığmasına 3:0 hesabı ilə qalib gəlib. Moldova və Makedoniya komandaları ilə qarşılaşmalar müvafiq olaraq 0:0 və 1:1 hesabı ilə başa çatıb. Digər iki görüşdə isə rəqib komandalar üstün olublar. Millimiz Belarusa 0:1, Qazaxıstana isə 0:3 hesabı ilə uduzub.

# "Sərhədçi" "100 İllik Yubiley Kuboku"nun qalibi olub

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə təşkil etdiyi Milli Atçılıq Festivalı çərçivəsində keçirilən çövkən milli atüstü oyunu üzrə "100 İllik Yubiley Kuboku" turnirinə iyunun 9-da yekun vurulub.

Turnirin final görüşündə "Sərhədçi" və "Omar" komandaları üz-üzə gəliblər. Matçın favoriti sayılan "Sərhədçi" komandası üstün oyun nümayiş etdirərək rəqibin qapısından dörd cavabsız top keçirib. Sərhədçilərin heyətində Amil Namazov dubl edib, Tərlan Qurbanəliyev və Nurlan Cəbrayılov isə hərəyə bir dəfə fərqləniblər.



Beləliklə, Milli Atçılıq Festivalı çərçivəsində keçirilən çövkən üzrə "100 İllik Yubiley Kuboku" turniri "Sərhədçi" komandasının çempionluğu ilə başa çatıb. "Sərhədçi" ardıcıl ikinci dəfə bu turnirin qalibi adını qazanıb.

Mükafatlandırma mərasimində medalları komandaların üzvlərinə Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev təqdim edib.

Xatırladaq ki, çövkən oyunu üzrə "100 İllik Yubiley Kuboku" turnirində səkkiz komanda - "Sərhədçi", "Polad", "Köhlən", "Murad", "Buta Golden", "Omar" kollektivləri ilə yanaşı, Ağstafanın və Ağcabədinin çövkən yığmaları da mübarizə aparıblar. "Sərhədçi" turnirin yarımfinalında "Buta Golden"i 5:2, "Omar" kollektivi isə "Polad"ı 1:0 hesabı ilə məğlub edərək finala yüksəliblər.

Turnirin ümumi mükafat fondu 50 min manatdır.

# Azərbaycan polisinin 100 illiyinə həsr olunan yarış keçirilib

Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyətində daxili işlər orqanlarının əməkdaşları arasında Azərbaycan polisinin 100 illiyinə həsr olunan silahsız özünümüdafiə üzrə yarış keçirilib. Yarışda 10 komandanı təmsil edən 80 idmançı gücünü sınayıb.

Yarışın açılış mərasimində əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Nazirliyin İdman Cəmiyyətinin sədri, polis polkovniki, Olimpiya çempionu Zemfira Meftaxetdinova açılış mərasimində çıxış edərək Azərbaycan polisinin böyük inkişaf yolu keçdiyini, dövlətçiliyimizin möhkəmlənməsi uğrunda üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini, ictimai asayişi və sabitliyi qorumaq naminə qarşıya çıxan çətinliklərə inamla sinə gərdiyini və cinayətkarlıqla qətiyyətlə mübarizə apardığını diqqətə çatdırıb. O bildirib ki, bu gün polisimiz həm də bir vətəndaş kimi, həyatın bütün sahələrində ölkəmizin inkişafına töhfə verir, dünyanın ən böyük idman arenalarından vətənimizə qələbələrlə qayıdırlar. Qazanılan bütün uğurların əsasında ölkə və DİN rəhbərliyinin ali diqqət və qayğısı dayanır.

Sonra yarışa start verilib. Polislər silahsız özünümüdafiə bacarıqlarını, yüksək fiziki hazırlıqlarını nümayiş etdiriblər.

Yarış başa çatdıqdan sonra hakimlər qrupu tərəfindən qiymətləndirmə olub. Nəticələrə görə Əlahiddə Çevik Polis Alayının komandası birinci yeri tutub. DİN Daxili Qoşunlar Baş İdarəsinin hərbi qulluqçuları ikinci, Polis Akademiyasının komandası isə üçüncü yerə layiq görülüb.

Turniri polis polkovnik-leytenantı Munir Orucov, polis mayoru Zaur Məcidov, polis serjantı Hikmət Hacıyev və Rəsul Məmmədov idarə ediblər. Baş hakim isə polis polkovnik-leytenantı Mülayim Xıdırov olub.

Silahsız özünümüdafiə üzrə yarışın keçirilməsinin məqsədi fərqlənən idmançılardan beynəlxalq turnirlərə qatılacaq komandamızın heyətini formalaşdırmaqdır.

# Millimiz FIFA reytinqində 21 pillə irəliləyib

FIFA milli komandaların yeni reytinq siyahısını açıqlayıb.

Azərbaycan millisi ötən ayla müqayisədə 21 pillə irəliləyib. Hazırda milli komandamız 321 xalla 105-ci pillədə qərarlaşıb.

Milli komandamızın Millətlər Liqasındakı rəqibləri də yeni reytinqdə irəliləyiblər. Farer Adaları millisi 376 xalla 90-cı, 11 pillə irəliləyən Kosovo 197 xalla 141-ci, Malta isə 65 xalla 184-cü yerdədir.

Qeyd edək ki, siyahıya 1558 xalla Almaniya millisi başçılıq edir. Braziliya yığması 1431 xalla ikinci, 1298 xalı olan Belçika isə üçüncüdür. İlk onluqda qərarlaşan digər komandalar Portuqaliya (1306 xal), Argentina (1254), İsveçrə (1179), Fransa (1166), İspaniya (1162), Çili (1146), Polşa (1118) yığmalarıdır. Türkiyə millisi 706 xalla 38-ci, Rusiya isə 457 xalla 70-ci yerdə qərarlaşıb.

# Atıcılıq üzrə dünya çempionatında qızıl medal

Beynəlxalq Hərbi İdman Şurasının (CISM) təşkilatçılığı ilə İsveçrənin Tun şəhərində hərbi atıcılıq üzrə 50-ci dünya çempionatı keçirilib.

Çempionatda ölkəmizi iki idmançı - baş leytenant Ruslan Lunev və Nigar Nəsirova təmsil edib.

Ruslan Lunev tapançadan 25 metr məsafəyə atəşaçma yarışında Estoniya və Çindən olan rəqiblərini üstələyərək qızıl medala layiq görülüb və dünya çempionu adını qazanıb.






XÜSUSİ BURAXILIŞ

# Şimalda böyük futbol bayramı başlayır




## 4 il gözlənilən həyəcan nəhayət ürəkləri riqqətə gətirəcək

İyunun 14-də bütün dünyanın diqqəti Rusiyaya yönələcək. Belə ki, həmin gün futbolsevərlərin həyəcanla gözlədiyi 21-ci dünya çempionatı start götürəcək. 1 ay davam edəcək futbol bayramını 3 milyarddan artıq futbolsevər izləyəcək. Tarixdə ilk dəfə Şərqi Avropada təşkil olunacaq çempionatda 32 komanda 11 şəhərin 12 stadionunda ən güclünü müəyyənləşdirəcək. Şimal qonşularımız bu mötəbər yarışa demək olar ki, 8 ilə yaxındır ki, hazırlaşıb. Belə ki, 2010-cu il dekabrın 2-də FİFA tərəfindən namizəd seçilən Rusiya bu məsuliyyəti öz üzərinə götürüb. Artıq çempionat üçün lazım və tələb olunan bütün proseslər yekunlaşıb. Komandalar onlar üçün ayrılmış bazalarda təlim-məşq toplanışlarında iştirak edir. Bir sözlə, 32 komanda qrup mərhələsindəki rəqiblərini gözləyir.

"Olimpiya dünyası" qəzeti bu sayında çoxsaylı oxucularının marağını nəzərə alaraq, DÇ-2018-ə həsr olunmuş xüsusi buraxılışını təqdim edir. Xüsusi buraxılışda dünya çempionatına hərs olunmuş statistik rəqəmləri, oyunların təqvimini, iştirakçı komandalar haqqında məlumatları ətraflı şəkildə dərc edirik. Çempionatın keçirildiyi günlərdə isə matçların qısa icmalını, oyunlardan sonra baş verən maraqlı hadisələri oxucularmızın diqqətinə çatdıracağıq.

## "Canavar" pələng və vəhşi pişiyi qabaqlayıb

Dünya çempionatından söz düşmüşkən, əvvəlcə bu yarışın talismanı barədə oxuculara məlumat verək. Rusiyalılar DÇ-2018-in talismanını seçmək üçün təxminən 6 il müzakirə aparıblar. Nəhayət ötən il, Ümumrusiya səsverməsindən sonra çempionatın talismanı müəyyənləşib. Rusiyalılar bütün dünyaya canavar "Zabivaka"nı təqdim etdilər. Bu talismanın müəllifi Tomsk Dövlət Universitetinin Qrafika kafedrasının dizayn üzrə tələbəsi Yekaterina Boçarovadır. 1 milyon respondent arasında keçirilən səsvermədə "canavar" pələng və vəhşi pişiyi 52,8 faiz səs çoxluğu ilə qabaqlayıb.

## "Telstar"ın üçüncü qayıdışı

Futbolun tarixi təxminən 150 ildən artıq bir dövrü əhatə edir. 1860-cı ildən bu günə kimi komandalar arasında dəyişməyən qaydalar üzrə keçirilən yarışda toplar fərqli formada təqdim olunub. İlk dünya çempionatından (Uruqvay-1930) Rusiya-2018-ə qədər müxtəlif toplar olub ki, onlar da özünəməxsus xüsusiyyətləri və adları ilə diqqət çəkib. Belə ki, Uruqvayda keçirilən ilk dünya çempionatında topların sayı iki olub. Bu toplardan birinin adı "Tiento", digərinin adı isə "T-model" olub. Maraqlıdır ki, "T-model" "Tiento"ya nisbətən ağır olduğu üçün komandalar tərəfindən bəyənilməyib. Top 9 dəri hissədən və dəri bağdan ibarət olub. Beləcə, 4 ildən bir təşkil olunan dünya çempionatlarında futbol topları da tədricən təkmilləşməyə başlayıb. 1958-ci ildə keçirilən dünya çempionatında isveçli təşkilatçılar böyük seçim qarşısında qalıblar. Belə ki, onlar çempionatın rəsmi topunu müəyyənləşdirmək üçün 102 müxtəlif top arasından seçim etməli olublar. Yekunda qərara alınıb ki, bütün topların arasından yeganə topu seçmək üçün bir nəfər gözüyumulu toplara yaxınlaşıb, onlardan birini götürməlidir. Həmin şəxs seçim edərək "Topstar"ı seçib. Bununla da İsveçdə keçirilən dünya çempionatının rəsmi topu belə adlanıb.

Rusiyalılar DÇ-2018-in rəsmi topunu bütün dünyaya "Telstar" adı altında təqdim edib. Maraqlıdır ki, dünya çempionatını yaxından izləyən, bu yarış haqqında geniş məlumatı olan azarkeşlər yaxşı bilirlər ki, buna qədər dünya çempionatı tarixində toplar 2 dəfə eyni cür adlandırılıb. Belə ki, 1970-ci ildə Meksikada keçirilən dünya çempionatında komandalara təqdim olunan top məhz bu adı daşıyıb. 32 elementdən ibarət olan bu top dünya çempionatları tarixində ilk ağ-qara top olub. 4 il sonra Almaniya Federativ Respublikasında keçirilən dünya çempionatında da yarışların topu eyni adda, fərqli qoşmada - "Telstar Durlas" adı ilə təqdim olunub. 44 ildən sonra "Adidas" firması öz ənənəsinə sadiq qalıb. Avropanın kosmosdakı peykinin (həmin peyk topu xatırladır -red) adını daşıyan top üçüncü dəfə Rusiyaya qayıtdı. DÇ-2018-in rəsmi topu olan "Telstar-18" indiyə qədər istehsal olunmuş toplar arasında fərqlənir. Ən böyük fərq isə odur ki, topun tərkibinin 70 faizi ekoloji maddələrdən ibarətdir. Bundan başqa topun görünməyən saplarında xüsusi mikroelementlər yerləşdiridib ki, "Telstar-18"in hərəkətinə 3D qrafikası vasitəsi ilə nəzarət etmək olacaq.

## Amerikalı müğənni DÇ-yə "rəng qatacaq"

Dünya çempionatını rəsmi musiqisiz təsvir etmək olmaz. Ötən ilə qədər çoxları gözləyirdi ki, Rusiyadakı DÇ-nin rəsmi musiqisini yerli musiqiçilər ifa edəcəklər. Lakin bu belə olmadı. Rusiyaya təsir etməyi bacaran FİFA qərara aldı ki, himni amerikalı müğənni Ceyson Derulo ifa etsin. Musiqi pley-listində öz musiqiləri ilə lider olan Derulonun ifa etdiyi "Colors" ("Rənglər") kompozisiyası çempionatın rəsmi himni kimi təqdim olunub.

## 2 min qoldan sonra yeni rekord gözlənilirmi?

Statistikaya nəzər salsaq görərik ki,1930-cu ildən 2018-ci ilə qədər dünya çempionatları tarixində 11 metrlik cərimə zərbələrini nəzərə almadan, 2 min qol vurulub. Qapılardan keçən bu topların 1200-ü fərqli futbolçuların adı ilə bağlıdır. Bu toplardan 35-ni 7 eyni futbolçu vurub. Dünya çempionatının ilk bombardiri Gilyermo Stabili olub - 8 qol. Bu nəticə 1954-cü ilə qədər dəyişməyib. İsveçrədə keçirilən dünya çempionatının qol rekordu macarıstanlı Şandor Koşiç tərəfindən yenilənib - 11 qol. Növbəti çempionatda (İsveç-1958) fransalı Jüst Fonten liderliyi ələ keçirib - 13 qol. Lakin 1974-cü ildə Almaniya Federativ Respublikasında təşkil olunan dünya çempionatında bu rekord elə almaniyalı futbolçu Herd Müller tərəfindən qırılıb. Həmin çempionatda rəqib qapılarına 14 top vuran Herd Müller Jüst Fonteni cəmi 1 top fərqilə qabaqlayıb. Bu rekord 24 il dəyişməyib. 1998-ci ildə braziliyalı Ronaldo fransalı həmkarını qabaqlayıb - 15 qol. Lakin Ronaldonun rekordu 4 ildən sonra tarixə qovuşub. Hazırda həmin rekordun müəllifi almaniyalı Miroslav Klozedir. O, 2014-cü ildə Braziliyada təşkil olunan dünya çempionatında 16 qol vurmağı bacarıb.







## "Boykot edib, pulsuz qalan ingilislər"

Futbolu hakimsiz təsəvvür etmək olmaz. Budəfəki dünya çempionatında 36 əsas və 63 köməkçi hakim 64 oyunun idarəçiliyində iştirak edəcək. FİFA oyunların idarəçiliyində bütün qitələrdən olan hakimləri nəzərə alıb. Belə ki, Avropadan Feliks Brix (Almaniya), Cüneyt Çakır (Türkiyə), Byörn Küypers (Hollandiya), Şimon Marçinyak (Polşa), Antonio Migel Mateo Laos (İspaniya), Milorad Majiç (Serbiya), Canluka Rokki (İtaliya), Damir Skomina (Sloveniya), Kleman Türpen (Fransa), Sergey Karasyov (Rusiya) oyunları idarə edəcək. FİFA Okeaniya Futbol Konfederasiyasından 2 hakimi dünya çempionatına layiq bilib. Mettyu Konqer Yeni Zelandiyadan, Norbert Hayarta isə Taitidən yarış üçün Rusiyaya dəvət olunub. Cənubi Amerika Futbol Konfederasiyasını 6 ölkədən eyni sayda hakim təmsil edəcək. Belə ki, Julian Baskunyan Çilini, Enrike Kaseres Paraqvayı, Nestor Pitana Argentinanı, Sandro Riççi Braziliyanı, Vilmar Roldan isə Kolumbiyanı təmsil edəcək. Bütün qitələrdən söz düşmüşkən, Asiya Futbol Konfederasiyasının da dünya çempionatına göndərdiyi 6 hakimin adları müəyyənləşib. Onların arasında Fahad Əl Mirdasi (Səudiyə Ərəbistanı), Əlireza Fəqani (İran), Ravşan İrmatov (Özbəkistan), Məhəmməd Abdulla Məhəmməd (BƏƏ), Sato Rudzi (Yaponiya) və Nəvah Şükralla (Bəhreyn) yer alıb. Afrika Futbol Konfederasiyasının adından "qara qitə"ni dünya çempionatında Mehdi Abid Çaref (Əlcəzair), Malanq Dithiu (Seneqal), Bakari Qassama (Qambiya), Qehat Qrişa (Misir), Canni Sikazu (Zambiya) və Bamlak Tessema (Efiopiya) təmsil edəcək. Şimali və Mərkəzi Amerika, eləcə də Karib hövzəsini də təmsil edən hakimlərin adları məlumdur. Bu konfederasiyadan Hoel Aqilar (Salvador), Mark Heyger, Ceyr Marrufo (hər ikisi ABŞ), Rikardo Montero (Kosta-Rika), Con Pitti (Panama) və Sesar Arturo Ramos Palasuelos (Meksika) matçları idarə edəcək.

Göründüyü kimi Avropa qitəsini çempionatda təmsil edən hakimlər arasında ingilislərin adı yoxdur. Bu isə britaniyalıların DÇ-2018-i boykot etməsi ilə əlaqədardır.

Onu da qeyd edək ki, FİFA hakimlər üçün oyunları idarəçiliyinə görə böyük məbləğ ayırıb. Belə ki, matçları idarə edəcək hakimlər hər bir qarşılaşmaya görə 70 min ABŞ dolları qazanacaq. Əgər həmin hakimin idarəçiliyi yüksək qiymətləndirilərsə, ədalət təmsilçisi əlavə olaraq 3 min dollar bonus qazanacaq. Dünya çempionatının oyunları zamanı hakim köməkçiləri də pulsuz qalmayacaqlar. Onların hər biri üçün 25 min ABŞ dolları (2 min əlavə bonus) nəzərdə tutulub.

Xatırladaq ki, DÇ-2010-da baş hakimlərə 35 min, DÇ-2014-də isə 50 min ABŞ dolları ödənilmişdi.

# 2018 FIFA WORLD CUP RUSSIA™

14 JUNE - 15 JULY

FIFA WORLD CUP RUSSIA 2018



## A qrupu



### Rusiya

**Rusiya Futbol İttifaqı**
**Prezident:** Mitali Mutko
**Yaranma tarixi:** 1912-ci il, 1912-ci ildən FİFA, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 66-cı yer.
**Ləqəb:** "Ayılar", "Rus drujinası"
**Baş məşqçi:** Stanislav Çerçesov (Rusiya)
**İlk oyun:** Rusiya - Meksika - 2:0 (1992-ci il )

### S.Ərəbistanı

**Səudiyə Ərəbistanı Futbol Federasiyası**
**Prezident:** Nauf Bin Fayzal Bin Abdul Aziz
**Yaranma tarixi:** 1956-cı il, 1956-cı ildən FİFA-nın, 1959-cu ildən AFK-nın üzvüdür.
**FİFA reytinqi:** 67-ci yer.
**Ləqəb:** "Qartallar", "Yaşıllar", "Səhra qartalları"
**Baş məşqçi:** Xuan Antonio Pitçi (Argentina)
**İlk oyun:** Səudiyə Ərəbistanı - Suriya - 3:1 (1957-ci il)





### Misir

**Misir Futbol Assosiasiyası**
**Prezident:** Samir Zaher
**Yaranma tarixi:** 1921-ci il, 1923-cü ildən FİFA-nın, 1957-ci ildən AFK- nin üzvüdür.
**FİFA reytinqi:** 46-cı yer.
**Ləqəb:** "Fironlar"
**Baş məşqçi:** Hektor Kuper (Argentina)
**İlk oyun:** İtaliya - Misir - 2:1 (1920-ci il)

### Uruqvay

**Uruqvay Futbol Assosiasiyası**
**Prezident:** Vilmar Valdes
**Yaranma tarixi:** 1900-cü il, 1916-cı ildən KONMEBOL-un, 1923-cü ildən FİFA-nın üzvüdür.
**FİFA reytinqi:** 17-ci yer.
**Ləqəb:** "La Celeste" ("Səma mavisi", "Səma olimpiyaçıları")
**Baş məşqçi:** Oskar Tabares (Uruqvay)
**İlk oyun:** Uruqvay - Argentina - 2:3 (1901-ci il)



## B qrupu



### Portuqaliya

**Portuqaliya Futbol Federasiyası**
**Prezident:** Fernando Qomes
**Yaranma tarixi:** 1914-cü il, 1923-cü ildən FİFA, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 4-cü yer.
**Ləqəb:** Selesçao das Quinas ("seçilmişlərin komandası")
**Baş məşqçi:** Fernandu Santuş (Portuqaliya)
**İlk oyun:** Portuqaliya - İspaniya - 1:3 (1921-ci il)

### İspaniya

**İspaniya Kral Futbol Federasiyası**
**Prezident:** Anhel Mariya Vilyar
**Yaranma tarixi:** 1909-cu il, 1913-cü ildən FİFA-nın, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 8-ci yer.
**Ləqəb:** La Furiya Royya ("Qırmızı qəzəb")
**Baş məşqçi:** Xülyen Lopeteqi (İspaniya)
**İlk oyun:** İspaniya - Danimarka - 1:0 (1920-ci il)






### Mərakeş

**Mərakeş Futbol Federasiyası**
**Prezident:** Fouzi Lekjaa
**Yaranma tarixi:** 1955-ci il, 1959-cu ildən AFK-nin, 1960-cı ildən FİFA-nın üzvüdür.
**FİFA reytinqi:** 42-ci yer.
**Ləqəb:** "Atlas şirləri"
**Baş məşqçi:** Erver Renar (Fransa)
**İlk oyun:** Mərakeş - İraq - 3:3 (1957-ci il)

### İran

**İran İslam Respublikasının Futbol Federasiyası**
**Prezident:** Mehdi Tac
**Yaranma tarixi:** 1920-ci il, 1948-ci ildən FİFA-nın, 1958-cı ildən AFK-nin üzvüdür.
**FİFA reytinqi:** 36-cı yer.
**Ləqəb:** "İran pələngləri"
**Baş məşqçi:** Karluş Keyruş (Portuqaliya)
**İlk oyun:** Əfqanıstan - İran - 0:0 (1941-ci il)



## C qrupu



### Fransa

**Fransa Futbol Federasiyası**
**Prezident:** Noel Le Qra
**Yaranma tarixi:** 1919-cu il, 1907-ci ildən FİFA-nın, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 7-ci yer.
**Ləqəb:** "Göylər", "Xoruzlar" "Üçrənglilər"
**Baş məşqçi:** Didye Deşam (Fransa)
**İlk oyun:** Fransa - Belçika - 3:3 (1904-cü il)

### Avstraliya

**Avstraliya Futbol Assosiasiyası**
**Prezident:** Ben Bakli
**Yaranma tarixi:** 1961-ci il, 1963-cü ildən FİFA-nın, 1966-cı ildən OFK-nin, 2006-cı ildən AFK-nin üzvüdür.
**FİFA reytinqi:** 40-cı yer.
**Ləqəb:** "Socceroos" ("Futbol kenquruları")
**Baş məşqçi:** Bert Van Marveyk (Hollandiya)
**İlk oyun:** Yeni Zelandiya - Avstraliya - 3:1 (1922-ci il)





### Peru

**Peru Futbol Federasiyası**
**Prezidenti:** (Yeni prezident təyin olunmayıb)
**Yaranma tarixi:** 1922-ci il, 1924-cü ildən FİFA-nın,1925-ci ildən KONMEBOL-un üzvüdür.
**FİFA reytinqi:** 11-ci yer.
**Ləqəb:** "Ağ qırmızılar", "İncas" ("İnkilər")
**Baş məşqçi:** Rikardo Qareka (Argentina)
**İlk oyun:** Peru - Uruqvay - 0:4 (1927-ci il)

### Danimarka

**Danimarka Futbol İttifaqı**
**Prezident:** Allan Hansen
**Yaranma tarixi:** 1889-cu il, 1904-cü ildən FİFA-nın, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 12-ci yer.
**Ləqəb:** "Dat dinamitləri" "Olsenin 11 dostu"
**Baş məşqçi:** Oqe Hareyde (Norveç)
**İlk oyun:** Danimarka Fransa - 9:0 (1908-ci il)



## D qrupu




### Argentina

**Argentina Futbol Assosiasiyası**
**Prezidenti:** Klaudio Tapia
**Yaranma tarixi:** 1893-cü il. 1912-ci ildən FİFA-nın, 1916-cı ildən KONMEBOL-un üzvüdür.
**FİFA reytinqi:** 5-ci yer.
**Ləqəb:** "Albicelestes" ("Bəyaz göyərçinlər")
**Baş məşqçi:** Xorxe Sampaoli (Argentina)
**İlk oyun:** Argentina - Uruqvay - 3:2 (1901-ci il)

### İslandiya

**İslandiya Futbol Assosiasiyası**
**Prezident:** Qudni Bergsson
**Yaranma tarixi:** 1947-ci il, 1947-dən FİFA-nın, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 22-ci yer.
**Ləqəb:** "Bizim oğlanlar"
**Baş məşqçi:** Xeymer Hadlqrimsson (İslandiya)
**İlk oyun:** İslandiya - Farer adaları - 1:0 (1930-cu il)





### Xorvatiya

**Xorvatiya Futbol Federasiyası**
**Prezident:** Davor Şuker
**Yaranma tarixi:** 1912-ci il, 1992-ci ildən FİFA-nın , 1993-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 18-ci yer.
**Ləqəb:** "Damalılar"
**Baş məşqçi:** Zlatko Daliç (Xorvatiya)
**İlk oyun:** Xorvatiya - İsveçrə - 4:0 (1940-cı il )

### Nigeriya

**Nigeriya Futbol Assosiasiyası**
**Prezident:** Djibrilla Hamidou
**Yaranma tarixi:** 1945-ci il,1960-cı ildən FİFA-nın və AFK-nin üzvüdür.
**FİFA reytinqi:** 47-ci yer.
**Ləqəb:** "Super qartallar"
**Baş məşqçi:** Qernot Rohr (Almaniya)
**İlk oyun:** Nigeriya - Syerra-Lione - 2:0 (1949-cu il)






## E qrupu



### Braziliya

**Braziliya Futbol Konfederasiyası**
**Prezident:** Antonio Nuneş
**Yaranma tarixi:** 1914-cü il, 1923-cü ildən FİFA-nın, 1916-cı ildən KONMEBOL-un üzvüdür.
**FİFA reytinqi:** 2-ci yer.
**Ləqəbi:** "Samba kralları", "Pentakampeonlar"
**Baş məşqçi:** Adenor Leonardo Bakşi "TİTE" (Brazilya)
**İlk oyun:** Braziliya - Argentina - 0:3 (1914-cü il)

### İsveçrə

**İsveçrə Futbol İttifaqı**
**Prezident:** Peter Gillieron
**Yaranma tarixi:** 1895-ci il, 1904-cü ildən FİFA-nın, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 6-cı yer.
**Ləqəb:** "Schweizer Nati"
**Baş məşqçi:** Vladimir Petkoviç (Bosniya və Herseqovina)
**İlk oyun:** İsveçrə - Fransa - 0:1 (1905-ci il)





### Kosta-Rika

**Kosta-Rika Futbol Federasiyası**
**Prezident:** Rodolfo Villalobos
**Yaranma tarixi:** 1921-ci il, 1927-ci ildən FİFA-nın, 1961-ci ildən KONKAKAF-ın üzvüdür.
**FİFA reytinqi:** 25-ci yer.
**Ləqəb:** Los Ticos ("Vətənpərvərlər" )
**Baş məşqçi:** Oskar Ramires (Kosta-Rika)
**İlk oyun:** Kosta-Rika - Salvador - 7:0 (1921-ci il)

### Serbiya

**Serbiya Futbol İttifaqı**
**Prezident:** Slavisa Kokeza
**Yaranma tarixi:** 1919-cu il, 1921-ci ildən FİFA-nın,1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 35-ci yer.
**Ləqəb:** "Ağ qartallar"
**Baş məşqçi:** Mladen Krstaiç (Serbiya)
**İlk oyun:** Çexiya - Serbiya - 1:3 (2006-cı il)



## F qrupu



### Almaniya

**Almaniya Futbol İttifaqı**
**Prezident:** Reynard Qrindel
**Yaranma tarixi:** 1900-cü il.
1904-cü ildən FİFA-nın ,1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 1-ci yer.
**Ləqəb:** "Dia Mannschaft", "Bundestim"
**Baş məşqçi:** Yoahim Löv (Almaniya)
**İlk oyun:** Almaniya - İsveçrə - 3:5 (1908-ci il)

### Meksika

**Meksika Futbol Federasiyası**
**Prezident:** Desio de Maria
**Yaranma tarixi:** 1927-ci il, 1929-cu ildən FİFA-nın, 1961-cı ildən KONKAKAF-ın üzvüdür.
**Ləqəb:** "El Tri" ("üçrənglilər")
**FİFA reytinqi:** 15-ci yer.
**Baş məşqçi:** Xuan Karlos Osorio (Meksika)
**İlk oyun:** Meksika - Qvatemala - 3:2 (1923-cü il)





### İsveç

**İsveç Futbol İttifaqı**
**Prezident:** Karl Erik Nilsson
**Yaranma tarixi:** 1904-cü il, 1904-cü ildən FİFA-nın, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 23-cü yer.
**Ləqəb:** "Mavi sarılar", "Rosomaha"
**Baş məşqçi:** Yanne Andersson (Isveç)
**İlk oyun:** Isveç - Norveç -11:3 (1908-ci il)

### C. Koreya

**Cənubi Koreya Futbol Assosiasiyası**
**Prezident:** Çonq Monq Qyu
**Yaranma tarixi:** 1928-ci il, 1948-ci ildən FİFA-nın ,1954-cü ildən AFK-nin üzvüdür.
**FİFA reytinqi:** 61-ci yer.
**Ləqəb:** "Asiya pələngləri", "Qırmızı Şeytanlar", "İn Yan döyüşçüləri".
**Baş məşqçi:** Sin Te Yon (C.Koreya)
**İlk oyun:** C.Koreya - Meksika - 5:3 (1948-ci il)



## G qrupu



### Belçika

**Belçika Krallığının Futbol Assosiasiyası**
**Prezident:** Gerard Linard
**Yaranma tarixi:** 1895-ci il, 1904-cü ildən FİFA-nın ,1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 3-cü yer.
**Ləqəb:** "Rode Duivels", "Diables Rouges" ("Qırmızı şeytanlar")
**Baş məşqçi:** Roberto Martines (İspaniya)
**İlk oyun:** Belçika - Fransa - 3:3 (1904-cü il)

### Panama

**Panama Futbol Federasiyası**
**Prezident:** Pedro Haluha
**Yaranma tarixi:** 1937-ci il, 1938-ci ildən FİFA-nın, 1961-ci ildən KONKAKAF-ın üzvüdür.
**FİFA reytinqi:** 55-ci yer.
**Ləqəb:** "Los Canaleros" ("kanallılar") , "La Marea Roja"
**Baş məşqçi:** Hernan Dario Qomez (Kolumbiya)
**İlk oyun:** Panama - Venesuela - 2:1 (1938-ci il)





### Tunis

**Tunis Futbol Federasiyası**
**Prezident:** Wadie Jary
**Yaranma tarixi:** 1957-ci il, 1960-cı ildən FİFA-nın və AFK-nin üzvüdür .
**FİFA reytinqi:** 14-cü yer.
**Ləqəb:** "Karfagen qartalları"
**Baş məşqçi:** Nabil Maalul (Tunis)
**İlk oyun:** Tunis - Əlcəzair - 2:1

### İngiltərə

**İngiltərə Futbol Assosiasiyası**
**Prezident:** Qlerq Klark.
**Yaranma tarixi:** 1863-cü il, 1905-ci ildən FİFA-nın, 1954-cü ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 13-cü yer.
**Ləqəb:** "The Lions" ( "Şirlər" )
**Baş məşqçi:** Qaret Sautqeyt (İngiltərə)
**İlk oyun:** Şotlandiya İngiltərə - 0:0



## H qrupu



### Polşa

**Polşa Futbol İttifaqı**
**Prezidenti:** Zbiqnev Bonek
**Yaranma tarixi:** 1919-cu il, 1923-cü ildən FİFA-nın, 1955-ci ildən UEFA-nın üzvüdür.
**FİFA reytinqi:** 10-cu yer.
**Ləqəb:** "Ağ qırmızılar", "Ağ qartallar"
**Baş məşqçi:** Adam Navalka (Polşa)
**İlk oyun:** Macarıstan - Polşa - 1:0 (1921-ci il)

### Seneqal

**Seneqal Futbol Federasiyası**
**Yaranma tarixi:** 1960-cı il, 1964-cü ildən FİFA-nın və AFK-nin, 1975-ci ildən isə Qərbi Afrika Futbol İttifaqının üzvüdür.
**Prezidenti:** Senyor Auqustin
**FİFA reytinqi:** 28-ci yer.
**Ləqəb:** "Les Lions de la Teranga" ("Teranqa aslanları")
**Baş məşqçi:** Aliu Sisse (Seneqal)
**İlk oyun:** Daqomeya - Seneqal - 3:2 (1961-ci il)





### Kolumbiya

**Kolumbiya Futbol Federasiyası**
**Prezidenti:** Ramon Jesurun
**Yaranma tarixi:** 1924-cü il.
1936-cı ildən FİFA-nın və KONMEBOL-un üzvüdür.
**FİFA reytinqi:** 16-cı yer.
**Ləqəb:** "Los Cofeteros" ("qəhvəçilər")
**Baş məşqçi:** Xose Pekerman (Argentina)
**İlk oyun:** Meksika - Kolumbiya - 3:1 (1938-ci il)

### Yaponiya

**Yaponiya Futbol Federasiyası**
**Yaranma tarixi:** 1921-ci il, 1929-cu ildən FİFA-nın ,1954-cü ildən isə AFK-nin üzvüdür.
**Prezidenti:** Taşima Kozo
**FİFA reytinqi:** 60-cı yer.
**Ləqəb:** "Göy samuraylar"
**Baş məşqçi:** Akira Nisino (Yaponiya)
**İlk oyun:** Yaponiya - Çin - 0:5 (1917-ci il)






## A qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 1. | 14 iyun | Saat 19:00 | Moskva (“Lujniki” stadionu) | Rusiya - S. Ərəbistanı |
| 2. | 15 iyun | Saat 16:00 | Yekaterinburq (“Sinara Arena”) | Misir - Uruqvay |
| 17. | 19 iyun | Saat 22:00 | Sankt-Peterburq (“Zenit Arena”) | Rusiya - Misir |
| 19. | 20 iyun | Saat 19:00 | Rostov (“Levberdon Arena”) | Uruqvay - S. Ərəbistanı |
| 33. | 25 iyun | Saat 18:00 | Volqoqrad (“Sentral” stadionu) | S. Ərəbistanı - Misir |
| 34. | 25 iyun | Saat 18:00 | Samara (“Kosmos Arena”) | Uruqvay - Rusiya |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Rusiya | | | | | | | | | |
| 2 | S.Ərəbistanı | | | | | | | | | |
| 3 | Misir | | | | | | | | | |
| 4 | Uruqvay | | | | | | | | | |

## B qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 3. | 15 iyun | Saat 19:00 | Sankt-Peterburq (“Zenit Arena”) | Mərakeş - İran |
| 4. | 15 iyun | Saat 22:00 | Soçi (“Fişt” stadionu) | Portuqaliya - İspaniya |
| 18. | 20 iyun | Saat 16:00 | Moskva (“Lujniki” stadionu) | Portuqaliya - Mərakeş |
| 20. | 20 iyun | Saat 22:00 | Kazan (“Kazan Arena”) | İran - İspaniya |
| 35. | 25 iyun | Saat 22:00 | Saransk (“Yubileyni” stadionu) | İran - Portuqaliya |
| 36. | 25 iyun | Saat 22:00 | Kaliningrad (“Baltika Arena”) | İspaniya - Mərakeş |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Portuqaliya | | | | | | | | | |
| 2 | İspaniya | | | | | | | | | |
| 3 | Mərakeş | | | | | | | | | |
| 4 | İran | | | | | | | | | |

## C qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 5. | 16 iyun | Saat 14:00 | Kazan (“Kazan Arena”) | Fransa - Avstraliya |
| 7. | 16 iyun | Saat 20:00 | Saransk (“Yubileyni” stadionu) | Peru - Danimarka |
| 21. | 21 iyun | Saat 16:00 | Samara (“Kosmos Arena”) | Danimarka - Avstraliya |
| 22. | 21 iyun | Saat 19:00 | Yekaterinburq (“Sinara Arena”) | Fransa - Peru |
| 37. | 26 iyun | Saat 18:00 | Soçi (“Fişt” stadionu) | Avstraliya - Peru |
| 38. | 26 iyun | Saat 18:00 | Moskva (“Lujniki” stadionu) | Danimarka - Fransa |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Fransa | | | | | | | | | |
| 2 | Avstraliya | | | | | | | | | |
| 3 | Peru | | | | | | | | | |
| 4 | Danimarka | | | | | | | | | |

## D qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 6. | 16 iyun | Saat 17:00 | Moskva (“Spartak” stadionu) | Argentina - İslandiya |
| 8. | 16 iyun | Saat 23:00 | Kaliningrad (“Baltika Arena”) | Xorvatiya - Nigeriya |
| 23. | 21 iyun | Saat 22:00 | Nijniy Novqorod (“Volqa Arena”) | Argentina - Xorvatiya |
| 25. | 22 iyun | Saat 19:00 | Volqoqrad (“Sentral” stadionu) | Nigeriya - İslandiya |
| 39. | 26 iyun | Saat 22:00 | Rostov (“Levberdon Arena”) | İslandiya - Xorvatiya |
| 40. | 26 iyun | Saat 22:00 | Sankt-Peterburq (“Zenit Arena”) | Nigeriya - Argentina |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Argentina | | | | | | | | | |
| 2 | İslandiya | | | | | | | | | |
| 3 | Xorvatiya | | | | | | | | | |
| 4 | Nigeriya | | | | | | | | | |

## E qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 9. | 17 iyun | Saat 16:00 | Samara (“Kosmos Arena”) | Kosta-Rika - Serbiya |
| 11. | 17 iyun | Saat 22:00 | Rostov (“Levberdon Arena”) | Braziliya - İsveçrə |
| 24. | 22 iyun | Saat 16:00 | Sankt-Peterburq (“Zenit Arena”) | Braziliya - Kosta-Rika |
| 26. | 22 iyun | Saat 22:00 | Kaliningrad (“Baltika Arena”) | Serbiya - İsveçrə |
| 43. | 27 iyun | Saat 22:00 | Nijniy Novqorod (“Volqa Arena”) | İsveçrə - Kosta-Rika |
| 44. | 27 iyun | Saat 22:00 | Moskva (“Spartak” stadionu) | Serbiya - Braziliya |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Braziliya | | | | | | | | | |
| 2 | İsveçrə | | | | | | | | | |
| 3 | Kosta-Rika | | | | | | | | | |
| 4 | Serbiya | | | | | | | | | |

## F qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 10. | 17 iyun | Saat 19:00 | Moskva (“Lujniki stadionu”) | Almaniya - Meksika |
| 12. | 18 iyun | Saat 16:00 | Nijniy Novqorod (“Volqa Arena”) | İsveç - Cənubi Koreya |
| 28. | 23 iyun | Saat 19:00 | Rostov (“Levberdon Arena”) | Cənubi Koreya - Meksika |
| 29. | 23 iyun | Saat 22:00 | Soçi (“Fişt” stadionu) | Almaniya - İsveç |
| 41. | 27 iyun | Saat 18:00 | Kazan (“Kazan Arena”) | Cənubi Koreya - Almaniya |
| 42. | 27 iyun | Saat 18:00 | Yekaterinburq (“Sinara Arena”) | Meksika - İsveç |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Almaniya | | | | | | | | | |
| 2 | Meksika | | | | | | | | | |
| 3 | İsveç | | | | | | | | | |
| 4 | Cənubi Koreya | | | | | | | | | |

## G qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 13. | 18 iyun | Saat 19:00 | Soçi (“Fişt” stadionu) | Belçika - Panama |
| 14. | 18 iyun | Saat 22:00 | Volqoqrad (“Sentral” stadionu) | Tunis - İngiltərə |
| 27. | 23 iyun | Saat 16:00 | Moskva (“Spartak” stadionu) | Belçika - Tunis |
| 30. | 24 iyun | Saat 16:00 | Nijniy Novqorod (“Volqa Arena”) | İngiltərə - Panama |
| 47. | 28 iyun | Saat 22:00 | Kaliningrad (“Baltika Arena”) | İngiltərə - Belçika |
| 48. | 28 iyun | Saat 22:00 | Saransk (“Yubileyni” stadionu) | Panama - Tunis |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Belçika | | | | | | | | | |
| 2 | Panama | | | | | | | | | |
| 3 | Tunis | | | | | | | | | |
| 4 | İngiltərə | | | | | | | | | |

## H qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 15. | 19 iyun | Saat 16:00 | Saransk (“Yubileyni” stadionu) | Kolumbiya - Yaponiya |
| 16. | 19 iyun | Saat 19:00 | Moskva (“Spartak” stadionu) | Polşa - Seneqal |
| 31. | 24 iyun | Saat 19:00 | Yekaterinburq (“Sinara Arena”) | Yaponiya - Seneqal |
| 32. | 24 iyun | Saat 22:00 | Kazan (“Kazan Arena”) | Polşa - Kolumbiya |
| 45. | 28 iyun | Saat 18:00 | Samara (“Kosmos Arena”) | Seneqal - Kolumbiya |
| 46. | 28 iyun | Saat 18:00 | Volqoqrad (“Sentral” stadionu) | Yaponiya - Polşa |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Polşa | | | | | | | | | |
| 2 | Seneqal | | | | | | | | | |
| 3 | Kolumbiya | | | | | | | | | |
| 4 | Yaponiya | | | | | | | | | |



### 1/8 final mərhələsi

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun |
|---|---|---|---|---|
| 49. | 30 iyun | Saat 18:00 | Kazan (“Kazan Arena”) | C1 - D2 |
| 50. | 30 iyun | Saat 22:00 | Soçi (“Fişt” stadionu) | A1 - B2 |
| 51. | 01 iyul | Saat 18:00 | Moskva (“Lujniki” stadionu) | B1 - A2 |
| 52. | 01 iyul | Saat 22:00 | Nijniy Novqorod (“Volqa Arena”) | D1 - C2 |
| 53. | 02 iyul | Saat 18:00 | Samara (“Kosmos Arena”) | E1 - F2 |
| 54. | 02 iyul | Saat 22:00 | Rostov (“Levberdon Arena”) | G1 - H2 |
| 55. | 03 iyul | Saat 18:00 | Sankt-Peterburq (“Zenit Arena”) | F1 - E2 |
| 56. | 03 iyul | Saat 22:00 | Moskva (“Spartak” stadionu) | H1 - G2 |

### 1/4 final mərhələsi

| matç | tarix | vaxt | şəhər | oyun |
|---|---|---|---|---|
| 57. | 6 iyul | Saat 18:00 | Nijniy Novqorod (“Volqa Arena”) | 49-50-cü cütün qalibi |
| 58. | 6 iyul | Saat 22:00 | Kazan (“Kazan Arena”) | 53-54-cü cütün qalibi |
| 59. | 7 iyul | Saat 18:00 | Samara (“Kosmos Arena”) | 55-56-cı cütün qalibi |
| 60. | 7 iyul | Saat 22:00 | Soçi (“Fişt” stadionu) | 51-52-ci cütün qalibləri |

### 1/2 final mərhələsi

| matç | tarix | vaxt | şəhər | oyun |
|---|---|---|---|---|
| 61. | 10 iyul | Saat 22:00 | Sankt-Peterburq (“Zenit Arena”) | 57-58-ci cütün qalibi |
| 62. | 11 iyul | Saat 22:00 | Moskva (“Lujniki” stadionu) | 59-60-cı cütün qalibi |

### 3-cü yer uğrunda

| matç | tarix | vaxt | şəhər | oyun |
|---|---|---|---|---|
| 63. | 14 iyul | Saat 18:00 | Sankt-Peterburq (“Zenit Arena”) | 61-62-ci cütün məğlubları |

### Final

| matç | tarix | vaxt | şəhər | oyun |
|---|---|---|---|---|
| 64. | 15 iyul | Saat 19:00 | Moskva (“Lujniki” stadionu) | 61-62-ci cütün qalibi |




*Xüsusi buraxılışı hazırladılar:*
*Anar Əhmədov,*
*Azər Əlizadə*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Uğurlar inkişafa yol açır

***Bu gün Azərbaycanda idmanın və bədən tərbiyəsinin inkişaf etdirilməsi dövlətin əsas prioritetlərindən biridir. Bu, heç də təsadüfi deyil. Çünki idman ilk növbədə sağlamlıq, gümrahlıq mənbəyidir. İdmanın hər hansı bir ölkədə inkişafı, eyni zamanda onu dünyada tanıdan əsas vasitələrdən biridir.***

## Sabunçu idmançıları arasında Avropa çempionları da var

Müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin idmana göstərdiyi diqqət və qayğı, bu sahədə həyata keçirilən islahatlar tez bir zamanda öz bəhrəsini verməyə başladı. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması ilə bu sahədə daha böyük canlanma yaranmağa başladı. 1995-ci ildən isə Gənclər və İdman Nazirliyinin qurumu kimi paytaxtın rayonlarında Gənclər və İdman idarələri fəaliyyət göstərir. Onlardan biri də Sabunçu rayon Gənclər və İdman İdarəsidir.Bu idman idarəsinin də əsas məqsədi, digər idman qurumları kimi, gənclər və idman siyasətinin uğurla həyata keçirilməsi, gənclərin fiziki, mənəvi və əqli inkişafı üçün müvafiq şərait, bərabər imkanlar yaratmaqdır.

Sabunçu rayonunda gənclər və idman sahəsində görülən işlər, əldə olunan uğurlar haqda məlumat toplamaq üçün adı çəkilən quruma üz tutduq. Sabunçu rayon Gənclər və İdman İdarəsinin rəisi Rakif Əliyevlə söhbət zamanı məlum oldu ki, bu rayonda 10-a yaxın rəsmi idman klubu var. Həmin klublarda uşaq, yeniyetmə və gənclərə təcrübəli məşqçilər tərəfindən cüdo, güləş, atletika və digər idaman növlərinin sirləri öyrədilir. 2000-ci ildən bu vəzifədə çalışan Rakif müəllimin sözlərinə görə rayonda bu idman növlərinə maraq daha böyükdür: "Ümumiyyətlə, bu gün yeniyetmə və gənclər arasında cüdo, güləş ən çox sevilən və kütləviliyi ilə seçilən idman növlərindəndir. Sevindirici haldır ki, həmin idman növləri ölkəmizdə yüksək səviyyədə inkişaf edib. Bu növlər üzrə uğurlarımız kifayət qədərdir. Məhz bu amillərlə bağlıdır ki, Sabunçuda da gənclər arasında cüdoya, güləşə, boksa maraq daha çoxdur. Balaxanıdakı idman klublarının birində təcrübəli cüdo mütəxəssisi Müşfiq Hüseynov məşq keçir. Onun yetirmələri arasında nəinki respublika, eləcə də, beynəlxalq səviyyəli yarışların qalibləri və mükafatçıları var. Məsələn, 2016-cı ildə Avropa çempionu, 6 qat Azərbaycan çempionatının qalibi Asim Əhmədov, Avropa çempionatının ikincisi, Avropa kuboku yarışının üçüncüsü Aytac Qardaşxanlı, dəfələrlə respublika çempionatlarının qalibi olan Həsən Əhmədov, Nihat Quliyev, Səlim Hüseynov və digərləri məhz Müşfiq müəllimin tələbələridir" - deyə, Rakif müəllim bildirdi. O, həmçinin əlavə etdi ki, Azərbaycanda son illərdə vüsət almağa başlayan bir çox idman növləri də Sabunçuda uğurla inkişaf etdirilir. "Rayonumuzda bacarıqlı və gənc məşqçi Emil Şamilovun baş məşqçiliyi ilə "Alparslan" alpaqut klubu fəaliyyət göstərir. Emil müəllim tez bir zamanda bu növü yeniyetmə və gənclər arasında sevdirməyi bacarıb. Deyərdim ki, o, çox peşəkar və uğurlu məşqçidir. Düşünürəm ki, gələcəkdə bu növdə nailiyyətlərimiz daha çox olacaq. Həmçinin Sabunçuda ağırlıqqaldırma növü də inkişaf etməkdədir. Məşqçi Atabəy Məhərrəmzadə Zabrat qəsəbəsində yerləşən "Sparta" idman klubunda bu növün sirlərini öz yetirmələrinə öyrədir. Fikrimcə, o, öz işinin öhdəsindən layiqincə gəlir. Bunu qazanılan uğurlar, əldə olunan nailiyyətlər əyani şəkildə sübut edir. Həmçinin bacarıqlı atlet, gənc idmançı Nazim Babayev də Sabunçu rayonunda yerləşən 80 saylı tam orta məktəbdə təhsil alıb. O, ilk dəfə idmana bədən tərbiyəsi müəlliminin sayəsində başlayıb. Həmin müəllim Nazim Babayevə idmanı sevdirib. Biz hamımız onunla fəxr edirik", - deyə müsahibimiz bildirdi.

## Görülən işlər ürəkaçandır

Məlumat üçün bildirək ki, paytaxt Bakı 12 inzibati rayondan ibarətdir. Onların hər birinin öz idman idarəsi və infrastrukturu var. Hər bir idman idarəsinin də qarşısında duran əsas məqsədlərdən biri də, rayonda bədən tərbiyəsini təbliğ etmək, yeniyetmə və gənclərə idmanı sevdirməkdir. Bu istiqamətdə Sabunçu rayon Gənclər və İdman İdarəsi öz işinin öhdəsindən layiqli şəkildə gəlir. Belə ki, Rakif müəllimin verdiyi məlumata görə, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev tərəfindən idman idarəsinə daim lazımi dəstək göstərilir və bu kömək sayəsində də idman idarəsi öz fəaliyyətini günün tələbləri səviyyəsində qura bilir.

Müntəzəm olaraq keçirilən paytaxt miqyaslı idman yarışlarında Bakının rayonlarını təmsil edən komandalar bir-birləri ilə mübarizə aparır, ən yaxşı nəticə qazanmağa çalışırlar.Sağlam rəqabət isə şübhəsiz ki, inkişafa yol açır. Qazanılan uğurlardan danışan Rakif Əliyev bildirdi ki, hər il orta məktəblər arasında basketbol üzrə Bakı birinciliyi keçirilir və həmin yarışda artıq neçə illərdir ki, Sabunçu rayonunda yerləşən 69 saylı tam orta məktəbin basketbol komandası birinci yeri tutur. "2017-ci il oktyabrın 24-25-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə yeniyetmələr arasında keçirilən mini futbol birinciliyində Sabunçu rayonunu təmsil edən 80 saylı orta məktəbin komandası layiqli şəkildə mübarizə apararaq bürünc medal qazanıb. Ötən ilin dekabr ayında Nərimanov rayonu 258 saylı məktəbin idman zalında paytaxt məktəbliləri arasında stolüstü tennis üzrə turnir keçirilib. Həmin yarışda Sabunçu rayonunu təmsil edən komanda uğurla çıxış edərək üçüncü yerə yiyələnib. Əvvəlki illərdə də belə nailiyyətlərimiz çox olub və inanıram ki, bu uğurlarımız davamlı olacaq", - deyə həmsöhbətimiz əlavə etdi.



Sevindirici haldır ki, müntəzəm olaraq Sabunçu rayonunda müxtəlif daxili birinciliklər, yarışlar keçirilir. Rakif müəllimin verdiyi məlumata görə, belə yarışları təşkil etməkdə əsas məqsəd həm yeniyetmə və gənclər arasında idmanın kütləviliyini artırmaq, həm də ayrı-ayrı klubların, idmançıların potensialını yoxlamaqdır. Sabunçu rayon Gənclər və İdman İdarəsinin rəisi bu barədə danışarkən söylədi ki, martın 2-də Balaxanı İdman-Sağlamlıq Mərkəzində Sabunçu Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "5 Mart bədən tərbiyəsi və idman günü" münasibətilə cüdo üzrə açıq birincilik keçirilib. Həmin yarışda müxtəlif klubları təmsil edən idmançılar iştirak ediblər. Qalib və mükafatçılar Sabunçu rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom və medallarla təltif olunublar. "Bundan baqa "Kaspi" liseyinin idman zalında Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayon məktəbliləri arasında basketbol yarışı keçirilib ki, həmin yarışda da məktəblilər böyük həvəslə iştirak ediblər. 2017-ci il dekabrın 9-da Sabunçu rayon məktəb komandaları arasında rayonun 4 zonasını (Bakıxanov, Sabunçu, Zabrat, Maştağa) əhatə edən mini futbol turnirinə start verilib. Yarış yanvarın 19-dək davam edib. 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş turnirdə 90, 311 və 310 saylı məktəblərin komandaları müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri tutublar. Yanvarın 10-da "Kaspi" liseyinin idman zalında bu idarənin təşkilatçılığı ilə rayon ümumtəhsil məktəbliləri arasında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş voleybol turnirinə start verilib. Yalnız qızların mübarizə apardığı yarışda 311 saylı məktəbin komandası ən yaxşı nəticə göstərib. İkinci və üçüncü yerləri isə müvafiq olaraq, 252 və 80 saylı məktəbin voleybolçu qızları tutublar. 2017-ci il noyabrın 14-də Sabunçu qəsəbəsində yerləşən 311 saylı tam orta məktəbin idman zalında məktəbli qızlar arasında voleybol yarışı təşkil olunub. Həmin yarış maraqlı idman mübarizəsi şəraitində keçib və qaliblər idarəmiz tərəfindən müxtəlif hədiyyələrlə mükafatlandırılıblar", - deyə müsahibimiz bildirdi.







## "Yeniyetmə və gənclər hərbi-vətənpərvərlik ruhunda böyüməlidirlər"

Sadalanan idman yarışları ilə yanaşı, Sabunçu rayon Gənclər və İdman İdarəsi həm də yeniyetmə və gənclər arasında vətənpərvərlik hisslərini yüksəltmək məqsədilə mütəmadi olaraq müxtəlif tədbirlər, konfranslar keçirir. Belə tədbirlərdən biri də "Qəhrəmanlarımızı tanıyaq və tanıdaq" devizi altında keçirilib. Bundan əvvəl isə AXC-in 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti: milli dövlətçilik, müasir düşüncə, mənəvi varislik" mövzusunda seminar təşkil olunub. Aprelin 17-də Sabunçu Rayon İcra Hakimiyyəti və Sabunçu rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Sabunçu qəsəbəsində yerləşən Bakı Olimpiya Stadionunda şagirdlərin hərbi xidmətə hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə ənənəvi "Şahinlər" hərbi-idman oyunlarının final mərhələsi keçirilib. Yarışda qələbə qazanan 142 saylı orta məktəbin komandası Bakı şəhəri üzrə keçiriləcək final mərhələsinə vəsiqə qazanıb.

Ümumiyyətlə, hərbi-vətənpərvərlik ruhlu yarışların, tədbirlərin yeniyetmə və gənclər üçün çox vacib olduğunu vurğulayan Rakif müəllim dedi ki, "Şahinlər" tipli hərbi-idman oyunlarının keçirilməsi bu gün xüsusilə böyük əhəmiyyətə malikdir: "Bu gün müharibə şəraitində yaşayırıq. Düşmənlə sərhəd qonşusuyuq. Müharibə hər an başlana bilər və biz buna hazır olmalıyıq. Bunun üçün isə ilk növbədə yeniyetmə və gənclər hərbi-vətənpərvərlik ruhunda böyüməlidirlər. Orta məktəbin 10-11-ci sinif şagirdləri arasında "Şahinlər", aşağı sinif şagirdləri arasında "Cəsurlar" hərbi-idman oyunlarının keçirilməsi, məktəblilərə müntəzəm olaraq milli qəhrəmanlarımız haqqında məlumat verilməsi, "Vətənin müdafiəsinə hazıram" devizi altında müxtəlif tədbirlərin həyata keçirilməsi bu istiqamətdə atılan ən uğurlu addımlardandır. Təcrübələr göstərir ki, hərbi-idman yarışlarının keçirilməsi, həqiqətən də, şagirdlərə çox yaxçı təsir edir. Bu yarışlarda məktəblilər özlərini sanki döyüşdə hiss edir, milli qəhrəmanlarımıza bənzəməyə çalışırlar", - deyə Rakif müəllim bildirdi.

## "Biz gənclərə hərtərəfli, eləcə də, mənəvi cəhətdən dəstək olmalıyıq"

Yarışlarda uduzan, ruhdan düşən idmançılara idarə tərəfindən psixoloji dəstək göstərilirmi? Bu, idmançı üçün çox vacibdir.Sualımıza cavab verən müsahibimiz bildirdi ki, onlar həmişə gənc idmançılara kömək olmağa çalışırlar və düzgün qərar vermək üçün bir çox hallarda psixoloji dəstək göstərirlər. "Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov keçirilən müxtəlif tədbirlərdə həmişə deyir ki, gənclərlə işləyərkən özünüzü onların yerinə qoyun, onları dinləyin, arzu və istəklərini müəyyənləşdirməyə çalışın. Biz də bu tövsiyəyə əməl edirik və düzünü deyim ki, müsbət nəticəsini də görürük. Etiraf edim ki, bəzi hallarda biz mühafizəkar davrana bilərik. Amma gəncləri təmkinlə dinləyəndən, onlara qulaq asandan sonra görürsən ki, daha ideal təklif və qərar çıxarmaq mümkündür. Bu mənada biz hər bir gənclə dost olmağa çalışır, onların problemləri ilə yaxından maraqlanırıq. Əslində bu, bizim borcumuzdur. Biz gənclərə hərtərəfli, eləcə də, mənəvi cəhətdən dəstək olmalıyıq. Çünki gələcəyimiz onların əlindədir. Əlbəttə, yarışlarda uduzan idmançılarla da profilaktik söhbətlər edir, onları gələcək uğurlar üçün həvəsləndirməyə çalışırıq", - deyə Rakif müəllim bildirdi.

Sabunçu rayonunda yerləşən orta məktəblər arasında da idmanın inkişaf etdiyini söyləyən Rakif müəllim qeyd etdi ki, rayon ərazisində 46 orta məktəb var. Onlardan idman sahəsində və "Şahinlər" hərbi-idman oyunlarında qazandıqları uğurlara görə 72 saylı məktəb-lisey və 148, 309, 96, 107 və 69 saylı orta məktəblər daha qabaqcıldırlar. Həmin məktəblərdə təcrübəli idman müəllimləri çalışırlar, şagirdlər həvəslə bədən tərbiyəsi dərslərində iştirak edirlər. Maraqlıdır ki, adı çəkilən təhsil müəssisələri eyni zamanda təhsildə də fərqlənirlər.Bu da bir daha sübut edir ki, sağlamlıqla təhsil bir-birləri ilə sıx bağlıdır.Yəni bir sahənin inkişafı üçün o biri sahə də əhəmiyyətli rol oynayır.

Təhsildən söz düşmüşkən, müsahibimiz bildirdi ki, rayonda uşaq, yeniyetmə və gənclərin maairfləndirilməsi, biliklərinin artması istiqamətində müntəzəm işlər görülür, müxtəlif tədbirlər təşkil edilir. Bu barədə danışan Sabunçu rayon Gənclər və İdman İdarəsinin rəisi bildirdi ki, 252 saylı tam orta məktəbdə "Qələbəyə doğru kuboku" uğrunda Breynring intellektual yarışı keçirilib. Həmçinin fevralın 24-də 209 saylı tam orta məktəbdə Sabunçu rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə Xocalı faciəsinin ildönümünə həsr olunmuş "Xocalı əsrin faciəsidir" adlı ədəbi-bədii kompozisiya təşkil olunub. Yanvarın 30-da Sabunçu rayon Gənclər evində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı və Sabunçu Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "2 fevral-Azərbaycan Gənclər Günü" qeyd olunub. Yanvarın 12-də 215 saylı tam orta məktəbdə 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş "20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir" mövzusunda Sabunçu rayon orta ümumtəhsil məktəbləri arasında inşa müsabiqəsi keçirilib. 2017-ci il dekabrın 11-də Sabunçu rayon İcra Hakimiyyətində ümumilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir təşkil edilib. Həmin il dekabrın 2-də "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" dövlət proqramının icrası ilə əlaqədar Sabunçu rayonu Ramana qəsəbəsində 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə-realibitasiya Mərkəzində "3 dekabr Beynəlxalq Əlillər Günü" münasibətilə uşaqlarla görüş keçirilib. Noyabrın 27-də "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" dövlət proqramının icrası ilə əlaqədar Sabunçu rayon Gənclər və İdman İdarəsinn təşkilatçılığı ilə rayon Gənclər Evində "Gənclərin iqtisadiyyatda rolu" mövzusunda tədbir təşkil olunub. Həmçinin noyabrın 2-də 142 saylı tam orta məktəbdə "9 Noyabr - Azərbaycan Dövlət Bayrağı günü" münasibətilə Sabunçu rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayon orta ümumtəhsil müəssisələrinin şagirdləri arasında "Mənim bayrağım" adlı VII şeir müsabiqəsi keçirilib. Rakif müəllimin bildirdiyinə görə, keçirilən bütün bu tədbirlərin əsas məqsədi gəncləri ictimai mühitlə tanış etmək, dünyagörüşlərini artırmaqla yanaşı, həm də onlara vətən, millət, bayraq sevgisini daha da çox aşılamaqdır.

Yeniyetmə və gənclərin sağlam ruhda böyüməsi üçün onların zərərli vərdişlərdən uzaq durmaları əsas şərtdir. Çünki idman bədəni gümrah, sağlam edirsə, alkaqol və bu kimi zərərli vərdişlər bir başa xəstəliyə yol açır, qan-damar sisteminə, ürəyin, ağciyərlərin fəaliyyətinə mənfi təsir göstərir. Bununla bağlı olaraq rayonlardakı Gənclər və İdman idarələri fiziki tərbiyəni təbliğ etməklə yanaşı, həm də zərərli vədişlərə, o cümlədən narkomaniyaya qarşı mübarizə aparırlar. Bu haqda danışan müsahibimiz əlavə etdi ki, müntəzəm olaraq "Narkomaniyaya qarşı mübarizə" devizi altında tədbirlər keçirilir, tanınmış idmançılarla, millət vəkilləri ilə görüşlər təşkil olunur. Həmin yığıncaqlarda bu və ya digər zərərli vərdişlərin hansı fəlakətlərə səbəb ola biləcəyindən söhbət açılır, gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün onlara tövsiyələr verilir.

Göründüyü kimi, Sabunçu rayon Gənclər və İdman İdarəsi rayonda idmanın və bədən tərbiyəsinin təbliğ olunması, gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində səmərli işlər, silsilə tədbirlər həyata keçirir. Bütün bunlar isə ölkəmizdə bədən tərbiyəsi və idmanın, eyni zamanda Olimpiya hərəkatının kütləviləşməsi sahəsində daha böyük nailiyyətlər qazanılmasına öz töhfəsini verir.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Mini futbol turniri başa çatıb

“Neftçi İdman Klubu” neft, qaz və kimya sənayesi müəssisələri və digər təşkilatların işçiləri arasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş mini futbol turniri keçirib. Yarışda 14 komanda qalib adı uğrunda mübarizə aparıb. A qrupunda “Suraxanı Oyl”, “Neftqaztikinti” Tresti, İnformasiya Texnologiyaları və Rabitə İdarəsi, Geofizika və Geologiya İdarəsi, B qrupunda “Bahar Enerji” Əməliyyat Şirkəti, Nəqliyyat İdarəsi, Ekologiya İdarəsi, Kompleks Qazma İşləri Tresti, C qrupunda “Qaz İxrac” İdarəsi, Heydər Əliyev adına Neft Emalı Zavodu, Təhlükəsizlik İdarəsi, D qrupunda isə “Azneft” İstehsalat Birliyi, “SOCAR Petroleum” Qapalı Səhmdar Cəmiyyəti və Qaz Emalı Zavodunun komandaları yer alıblar.

Turnirin keçirilməsində əsas məqsəd neft, qaz və kimya sənayesi işçilərinin sağlamlıqlarının qorunması, onların asudə vaxtlarının səmərəli təşkil olunması, eləcə də bu idman növünün kütləviləşməsinə köməklik göstərilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin təntənəli qeyd edilməsi idi.

Bakı Olimpiya Stadionunda təşkil olunan turnirin finalında “SOCAR Petroleum” və “Azneft” komandaları qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən həlledici qarşılaşmada tərəflər demək olar ki, bərabər oyun nümayiş etdiriblər. Qarşılıqlı hücumlarla müşayiət olunan oyunun əsas vaxtı



da elə bərabər hesabla başa çatıb - 2:2. Matçın əlavə oynanılan on dəqiqəsində isə “SOCAR Petroleum” daha əzmlə mübarizə apararaq qələbə qolunu vurmağa müvəffəq olub - 3:2. Beləliklə, rəqibini 3:2 hesabı ilə məğlub edən “SOCAR Petroleum” ASC-nin komandası mini futbol turnirinin qalibi adını qazanıb. “Azneft” 2-ci, “Suraxanı Oyl” komandası isə 3-cü yeri tutub.

Turnirdə “ən yaxşı qapıçı”, “ən yaxşı oyunçu” və “ən məhsuldar oyunçu” nominasiyaları üzrə də mükafatlar təqdim olunub. Bu nominasiyaların qalibi adına müvafiq olaraq, Üzeyir Fərzəliyev (“Suraxanı Oyl”), Vüsal Məmmədov (“SOCAR Petroleum”) və Mehman Baxşəliyev (“Azneft” İB) layiq görülüblər.

Turnirin sonunda təşkil olunan mükafatlandırma mərasimində “Neftçi İdman Klubu”nun kütləvi bədən tərbiyəsi üzrə meneceri Akif Məmmədov çıxış edərək yarış iştirakçılarını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə klubun idarəetmə aparatının rəhbəri Sadıq Sadıqovun adından təbrik edib. İlk üç yeri tutan komandalar “Neftçi İdman Klubu” tərəfindən kubok, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

***“Neftçi İdman Klubu” İctimai Birliyinin mətbuat xidməti***



## *Respublika çempionatının son qalibləri müəyyənləşdi*

“Gənclik” Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə ali təhsil müəssisələri tələbələri arasında respublika çempionatı keçirilib. Çempionatın təqvim planına idmanın 6 növü - şahmat, stolüstü tennis, cüdo, yunan-roma güləşi, sərbəst güləş, badminton (qızlar və oğlanlar) daxil edilib. Çempionat sərbəst güləş və yunan-Roma güləşi üzrə yarışla başa çatıb. Yarışlar Pirallahı İdman Kompleksində keçirilib.

Respublika Çempionatına daxil olan sərbəst güləş (kişilər) üzrə yarışda 7 komanda iştirak edib. Gərgin mübarizə şəraitində keçən yarışda birinci yeri Gəncə Dövlət Universitetinin komandası tutub. Azərbaycan Tibb Universitetinin kollektivi ikinci, Azərbaycan Dövlət Texniki Universitetinin komandası isə üçüncü yerə sahib çıxıb.

Respublika çempionatına daxil olan yunan-Roma güləşi üzrə (kişilər) yarışda da 7 komanda qalib adı uğrunda mübarizə aparıb.

Sərbəst güləş yarışlarında olduğu kimi, bu növdə də birinci yerə Gəncə Dövlət Universitetinin komandası layiq görülüb. Azərbaycan Dövlət Texniki Universiteti ikinci, Sumqayıt Dövlət Universiteti isə üçüncü yeri tutub.

## Azarkeş Berlindən Moskavaya qədər traktorla hərəkət edir

Almaniyalı futbol azarkeşi 2018-ci il dünya çempionatı üçün Rusiyaya traktorla gəlir. Şahidlərin 70 yaş verdiyi fanat Belarus ərazisində görünüb. O, təkərli evin qoşulduğu qeyri-adi nəqliyyat vasitəsi ilə Moskvaya hərəkət edir.

Qeyd edək ki, dünya çempionatının oyunları iyunun 14-dən iyulun 15-dək Rusiyanın 11 şəhərində keçiriləcək. F qrupunda yer alan Almaniya millisi iyunun 17-də Moskvada Meksika, iyunun 23-də Soçidə İsveç, iyunun 27-də isə Kazanda Cənubi Koreya yığması ilə qarşılaşacaq.

## Qarşılaşma Kuala-Lumpurda keçiriləcək

Boks üzrə 8 çəki dərəcəsində keçmiş dünya çempionu Menni Pakiyaonun məşqçisi yetirməsinin qarşıdakı döyüşlərə çox ciddi hazırlaşdığını deyib.



Qeyd edək ki, tanınmış boksçu orta ağır çəki dərəcəsində WBA versiyası üzrə mütləq çempion Lukas Matisslə qarşılaşacaq. Qarşılaşma Malaziyanın Kuala-Lumpur şəhərində keçiriləcək.

“Matiss Lukasın çənəsi zəifdir və biz rinqdə buna uyğun mübarizə aparacağıq. O həm də çox əsəbi və çılğın insandır. Bu bizim xeyrimizədir. Menni Pakiyaonun qalib gələcəyinə ümidim çoxdur”, - deyə Castin Forçun bildirib.

## Lebron Ceymsin ötürməsi uğurlu alınıb



NBA-nın “Klivlend” komandasının oyunçusu, əfsanəvi basketbolçu Lebron Ceyms gözəl oyunu ilə bu dəfə də fərqlənib.

Basketbolçu “Qolden Steyt” klubuna qarşı oyunda rəqib səbətindən keçirdiyi topla azarkeşlərin rəğbətini qazanıb. Lebron Ceyms oyunun əvvəllərində hesab 10:4 olduğu halda, dirəyə vurduğu topu tutaraq onu yenidən yüksəkdən səbətə yönəldib. Onun bu ötürməsi uğurlu alınıb.

Qeyd edək ki, bu oyunda basketbolçu 33 xal yığıb, 11 ötürmə edib.

* * *

NBA-nın “Filadelfiya” klubunun prezidenti Brayan Kolancelo istefa verib. Buna tvitter sosial şəbəkəsində gizli akkauntlarla bağlı qalmaqal səbəb olub.

Brayan Kolancelonu gizli akkauntlar yaradaraq oyunçuların və klub heyətinin tənqid olunmasında, eləcə də şəxsi xarakterli informasiyaların yayılmasında günahlandırırlar. Onu bu vəzifədə müvəqqəti olaraq klubun baş məşqçisi Brett Braun əvəz edəcək.

## *Fuad Cəfərovun şəxsi kitablarından ibarət fond yaradılıb*



Respublika Şahmat Mərkəzinin ilk direktoru, şahmat turnirlərinin peşəkar təşkilatçısı Fuad Cəfərovun adı ölkəmizin idman ictimaiyyəti, o cümlədən şahmatsevərlər arasında daim böyük ehtiramla çəkilir.

İstedadlı şahmat məşqçisi Fuad Cəfərovun şahmat oyununun qaydaları, dərs vəsaiti, şahmat məktəbləri, şahmatçılar, beynəlxalq turnirlər, şahmat həyatından bəhs edən müxtəlif dillərdə nəşrlərdən ibarət zəngin kitabxanası onun qardaşı Cavanşir Cəfərov tərəfindən Binəqədi rayon mərkəzi kitabxanasına hədiyyə olunub. Şəxsi kitabxana Azərbaycan, rus, alman, ingilis, xorvat, çex və digər dillərdə ümumilikdə 417 kitabdan və 28 diskdən ibarətdir. Kitabxanada Fuad Cəfərovun kitablarından ibarət xüsusi fond yaradılıb.

# Kanada Qran-Prisinin qalibi müəyyənləşdi

Formula-1 üzrə Kanada Qran-Prisinə yekun vurulub.

Qalib adını “Ferrari” komandasının almaniyalı pilotu



Sebastyan Fettel qazanıb. Finlandiyalı Valtteri Bottas (“Mercedes”) ikinci, “Red Bull” komandasının hollandiyalı pilotu Mark Ferstappen isə üçüncü yerin sahibi olub.

Karyerasında 50-ci qələbəni qazanan S.Fettel “Mercedes” komandasının britaniyalı pilotu Luis Hamiltonu ümumi hesabda qabaqlayıb.

Qeyd edək ki, növbəti Qran-Pri iyunun 22-24-də Fransada keçiriləcək.

* * *

Beynəlxalq Avtomobil Federasiyası təqdim olunan təqvim layihəsini təsdiq edərsə, 2019-cu ildə Formula-1 çempionatı 1963-cü ildən başlayaraq ilk dəfə dekabr ayınadək uzadılacaq.

Layihəyə əsasən, mövsüm martın 17-də Avstraliya Qran-Prisi ilə start götürəcək. Sonra Formula-1-in tarixində 1000-ci avtoyürüşədək - Çin Qran-Prisinədək ikihəftəlik fasilə olacaq.

Almaniya Qran-Prisinin gələcəyinə zəmanət verilməməsinə baxmayaraq, mövsümün qalan hissəsi praktik olaraq, 2018-ci ilin təqvimi ilə tam üst-üstə düşür. Əbu-Dabi final yürüşünün vaxtı dekabr ayına keçiriləcək. Mayami Qran-Prisinin ehtimal olunan debütü nəzərə alınaraq, oktyabr ayında genişlənmə əmələ gəlib.

* * *

“Ferrari” komandası iyunun 16-da Kiyevdə nümunəvi yürüşlər keçirəcək. Kiyevin “Kontraktovaya” meydanında təşkil olunacaq yürüşdə “Ferrari” bolidini Mark Jene idarə edəcək. Tədbir çərçivəsində, həmçinin motobayk yürüşləri, musiqili proqram və əyləncə zonaları təşkil olunacaq.

Formula-1 bolidi Kiyevdə sonuncu dəfə proqrama 2012-ci ildə - Daniel Rikkardonun “Red Bull” ilə birlikdə “Peçerskaya” metrosu qarşısında nümunəvi yürüşü zamanı daxil edilib.

# Rafael Nadaldan növbəti çempionluq



İspaniyalı tennisçi Rafael Nadal karyerasında 11-ci dəfə Fransanın açıq tennis çempionatının qalibi olub. O, finalda avstriyalı Domenik Tima üzərində 3:0 hesabı ilə qələbə qazanıb - 6:4, 6:3, 6:2. Qarşılaşma 2 saat 44 dəqiqə davam edib.

Qeyd edək ki, Nadal tennis tarixində “Böyük dəbilqə” seriyasından olan eyni turnirin 11 dəfə qalibi olmuş yeganə ikinci şəxsdir. Bu qəbildən olan yarışların birinci rekordçu qalibi isə 1960-1973-cü illərdə keçirilmiş Avstraliya açıq birinciliyində 11-ci qələbəyə imza atmış Marqaret Kort olub. İspaniyalı tennisçi ən mötəbər tennis turnirində qələbələrin sayına görə tennisçilər arasında ikinci yerdədir. 20 qələbə ilə isveçrəli Roje Federer onu qabaqlayır.

* * *

Dünyanın bir nömrəli tennisçisi rumıniyalı Simon Xalep “Roland Garros-2018” tenis turnirinin qalibi olub.

O, finalda amerikalı Sloan Stivensın üzərində 2:1 hesabı ilə qələbə qazanıb - 3:6, 6:4, 6:1. Hesabdan da göründüyü kimi, birinci set çox gərgin keçib.

Qeyd edək ki, bu, Xalepin “Böyük dəbilqə” seriyasından olan Avstraliya açıq birinciliyində birinci qələbəsidir. Bu günə gədər dörd dəfə finala çıxan rumıniyalı idmançı bütün görüşlərdə məğlub olub.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19